*YAPONIYANIN AZƏRBAYCANDAKI SƏFIRLIYI*

Hyatt Tower 3, 6-cı mərtəbə
Izmir küç. 1033, Bakı

30 yanvar, 2009-cu il

# *Mətbuat üçün Məlumat*

## ***Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Zaqatalanın Faldarlı kəndində həyata keçirilmiş ilkin tibbi yardım mərkəzinin inşası layihəsinin başa çatması münasibəti ilə açılış mərasiminin keçirilməsi***

2 fevral 2009-cu il tarixdə saat 16:00-də Yaponiyanın "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Zaqatalanın Faldarlı kəndində həyata keçirilmiş ilkin tibbi yardım mərkəzinin inşası layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi keçiriləcəkdir. Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı Səlahiyyətli və Fövqəladə Səfiri cənab Masamitsu Oki, Zaqatala rayon İcra Hakimiyyəti Başçısı cənab Asif Əskərov və müvafiq təşkilatların nümayəndələri iştirak edəcəklər.

Sözügedən layihə üzrə qrant müqavilə Yaponiya Səfirliyi və "İnkişaf üçün gənclik" İctimai Birliyi arasında 27 iyun 2008-ci ildə imzalanmışdır. Layihənin əsas məqsədi Zaqatalanın Faldarlı kəndində ilkin tibbi yardım mərkəzində tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı **12,927** nəfərdir. Layihənin ümumi dəyəri isə **87,331 ABŞ dollarıdır**.

Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardım Proqramı" 2000-ci ildən Azərbaycan Respublikasında həyata keçirilir. Bu qrant proqramı Azərbaycan xalqının yaşayış standartlarının yaxşılaşdırılmasına yönəlmiş və bələdiyyələr, tibbi müəssisələr, təhsil müəssisələri və QHT-lər tərəfindən həyata keçirilən nisbətən kiçik miqyaslı layihələrə ayrılır. Belə layihələr səhiyyə, tibb, ibtidai və orta təhsil, sosial müdafiə, ətraf mühit, yoxsulluğun azaldılması və gəlirlərin artırılması sahəsində həyata keçirilə bilər. İndiyə kimi bu proqram çərçivəsində Azərbaycan Respublikasında ümumi məbləği **8, 068, 692** ABŞ dolları olan **115** layihə həyata keçirilmişdir.

Yaponiyanın Azərbaycana ayırdığı Rəsmi İnkişaf Yardımı iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə ümumi məbləği **730,213,352** ABŞ dolları təşkil etmişdir.

***Mətbuat Nümayəndələri açılış mərasimində iştirak etməyə dəvət olunur. Əlavə məlumat üçün Eri Momiyama (ancaq rus və ingilis dillərində) və Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz***:

**490 78 18/490 78 19; Fax: 490 78 20**